JURNALİSTİKA ÜZRƏ DƏRSLİK

# MÜNAQİŞƏLİ VƏZİYYƏTLƏRİN İŞIQLANDIRILMASININ ƏSASLARI

www.idem-institute.org
fnfsc.fnst.org
FNFSC

**PANDELİ PANİ**

ULRİKE FİŞER-BUTMALOİUNUN
HƏMMÜƏLLİFLİYİ İLƏ

# MÜNAQİŞƏLİ VƏZİYYƏTLƏRİN İŞIQLANDIRILMASININ ƏSASLARI

AZADLIQ NAMİNƏ FRIDRIX NAUMAN FONDU

Friedrich Naumann
STIFTUNG FÜR DIE FREIHEIT

Freiheit.org
fnfsc.fnst.org

ISBN 978-9941-27-682-8

© Friedrich Naumann Stiftung für die Freiheit

## MÜNDƏRİCAT


Münaqişə-sensitiv jurnalistika – giriş ........ 11

Bilik və bacarıqlar ........ 13

Münaqişə nədir? ........ 13

Münaqişəyə nələr səbəb olur? ........ 15

Münaqişə və zorakılıq – fərq nədən ibarətdir? ........ 20

Münaqişə-sensitiv nə deməkdir? ........ 22

Jurnalistlər üçün münaqişənin təhlili ........ 22

Münaqişənin eskalasiya mərhələləri ........ 26

Münaqişənin həll edilməsi və sülhün bərqərar olmasına jurnalistlərin töhvəsi ........ 30

Münaqişədə medianın rolu ........ 30

Sülh jurnalistikasının konsepsiyası ........ 33

Sülh siyahısı və münaqişə-sensitiv jurnalistika ........ 37

Münaqişə-sensitiv jurnalistikanın misalları ........ 40

Təhlükəsizlik tədbirləri ........ 45

İstifadə olunmuş mənbələr ........ 47

“Azadlıq Uğrunda Fridrix Nauman Fondu” dünyanın 60-dan çox ölkəsində insan hüquqları, açıq cəmiyyət, təhsil, sosial bazar iqtisadiyyatı, məsuliyyət və fərdi azadlıq kimi liberal dəyərləri müdafiə edir.

Fridrix Nauman Fondu həmin fəaliyyət çərçivəsində 2016-cı ildə Almaniya Xarici İşlər Nazirliyinin dəstəyi ilə Demokratiya, Media və Mədəni Mübadilə İnstitutu və yerli tərəfdaşlar ilə əməkdaşlıqla Cənubi Qafqazın jurnalistləri üçün üçillik təhsil layihəsinə başlamışdır.

Üç on beş nəfərlik qrupda Ermənistan, Azərbaycan və Gürcüstandan olan müxtəlif yaş qrupuna aid və peşə təcrübəsinə malik olan jurnalistlər yüksək səviyyəli təlimləri keçmiş və iqtisadiyyat, mədəni dəyərlər və münaqişələr mövzuları üzrə obyektiv jurnalistika fəaliyyəti barədə praktiki təcrübəni əldə etmişlər.

Həmin təhsil layihəsinin məqsədi – qərəzsiz jurnalistikanın inkişafına töhfə vermək və regional medianın nümayəndələri arasında əlaqələri qurmaqdan ibarətdir.

Cənubi Qafqaz regionunun jurnalistləri və beynəlxalq və yerli ekspertlərin həmin nəzəri və təcrübi əməkdaşlığı nəticəsində üç konkret sahədə obyektiv jurnalistika mövzusunda üç dərslik hazırlanmışdır: iqtisadiyyat, mədəni dəyərlər və münaqişələr.

**Peter-Andreas Boxman**
Azadlıq Uğrunda Fridrix Nauman Fondunun Cənubi Qafqaz layihəsinin rəhbəri

## Müəllif haqqında

Doktor Pandeli Pani 25 ildir ki, jurnalist, məsləhətçi işləyir və təlimlər keçirir. O, Ukrayna, Balkanlar, MDB və Mərkəzi Asiya ölkələrində jurnalistlərin bir çox yenidən hazırlıq təlimini hazırlayaraq keçirmişdir. O, məsləhətçi kimi, daha çox dövlət radio-yayımçılığın ictimai radioya çevrilməsi (Şərqi Avropa, Ukrayna) və Sakrebuloların radiosunun (Community radios) formalaşmasının (Cənubi-Şərqi Avropa, Myanmar) problematikası ilə məşğuldur. O, dəvət olunmuş pedaqoq statusu ilə Berlin Azad Universitetində, Bonn və Yena Universitetlərində, eləcə də Tirana Universitetində, Kirill və Mefodiy adına Universitetdə (Bolqarıstan) və İv. Cavaxişvili adına Tbilisi Dövlət Universitetində fəaliyyət göstərirdi.

## Həmmüəllif haqqında

Doktor Ulrike Fişer-Butmaloiu jurnalist, treyninqlərin aparıcısı və dosentdir. Berlin Azad Universitetinin Beynəlxalq Jurnalistlər Kollegiyasında yenidən hazırlıq təlimlərinə rəhbərlik edirdi, həmin təlimlərdə bütün Avropa ölkələrindən, MDB-dən və ABŞ-dan olan jurnalistlər iştirak edirdilər. O, təlim və mühazirə-seminarları keçirmək üçün Misirə, Fələstinə, Qanaya, Kambocaya, Mərkəzi Asiyaya, Balkanlara və Qafqaz ölkələrinə dəvət olunmuşdur, media-mədəniyyət (edia iteracy), siyasi kommunikasiya, jurnalist təcrübəsi kurslarına rəhbərlik edirdi. Onun doktorluq işinin mövzusu - “Böhran vəziyyətlərində Rus mediası”dır.

Ölkədə demokratik mədəniyyəti qoruyub-saxlamaq üçün azad və müstəqil media əhəmiyyətli rol oynayır. O, ictimai fikrin formalaşmasına öz töhfəsini verir və, beləliklə, mərkəzi ictimai vəzifəni yerinə yetirir. Bu funksiyanı layiqincə yerinə yetirə bilmək üçün jurnalistlərə xüsusi imtiyazlar və tədqiq etmək imkanları verilir. Lakin bu onların öhdəsinə auditoriya və ümumiyyətlə cəmiyyət qarşısında əhəmiyyətli məsuliyyəti də qoyur. Bu məsuliyyət yalnız reportajın gedişi zamanı ehtiyatlı olmaq vəzifəsi deyil, məsələn, məsələ münaqişə və/və ya kapital bazarları və ya maliyyə məhsulları haqqında məlumat kimi həssas mövzulardan ibarət olduğu zaman, jurnalistlər daima peşə səviyyələrini yüksəltməyə davam etməlidirlər.

Gürcüstan, Ermənistan və Azərbaycanda adi jurnalist təhsili ümumi istiqamət jurnalistlərinin tərbiyə edilməsinə yönəldilir, onlar "hər şey haqqında" yazırlar. Peşə hazırlığının geniş spektri onlara müxtəlif mövzular barədə yazmaq imkanını verir. Lakin, onların təhsili, ilk növbədə, günün aktual mövzularının işlənməsinə və dərinlik əvəzinə genişliyə hesablanmasına görə onların peşə sərhədlərini ümumi təhsilləri müəyyən edir, yeni mövzuları öyrənmək və biliyi dərinləşdirmək üçün vaxtları qalmır. Bu cür problemlə münaqişələr, böhran və ya fəlakətlər barədə reportaj hazırlamalı olduqları zaman da qarşılaşırlar.

Azadlıq Uğrunda Fridrix Naumann Fondu maliyyə və biznes haqqında reportaj, cəmiyyətdə "fərqliliyə doğru" / "rəngarəngliyə doğru" ("i-versity") yönəlmə və eləcə də, münaqişəyə qarşı incə jurnalistikanın mövzuları barədə aparılmış təlimlərlə yalnız Cənubi Qafqaz ölkələrində bu mövzularla əlaqədar olaraq yaranmış tələbata deyil, ümumiyyətlə dünyada jurnalistlərə qarşı tələblərin artmasına da

səslənir, çünki jurnalistlərdən gündən-günə daha çox peşə və sosial bacarıqlar tələb olunur.

Jurnalistlər maliyyə mövzuları barədə necə yazmalıdırlar ki, onların reportajı maraqlı, canlı və oxucu üçün başa düşülən olsun? Maliyyə və biznes-təşkilatlar haqqında məlumatı necə əldə etməlidirlər? Böhranlar, münaqişə və müharibələr haqqında yazarkən obyektivliyi necə qorumalıdırlar? Böhran dövrlərində jurnalist kvalifikasiyası hansı meyarlarla ölçülür? Müvafiq ölkənin mediasına stereotiplər və mövhumat nə dərəcədə böyük təsir göstərir? Ayrı-seçkilikdən azad olan reportaj necə ola bilər? – bunlar vorkşoplarda müzakirə olunan bəzi məsələ və ya mövzulardır. Əvvəlcə nəzəri biliyi təcrübi jurnalist işi ilə tamamladılar. Vorkşop çərçivəsində iştirakçılar üç qrupa bölündü və birgə layihələr üzərində işlədilər, sorğu və müsahibələr apardılar, əldə edilmiş məlumatı dərinləşdirdi və aksentləri ayırdılar. Daha sonra hazırlanmış layihələrin ümumi müzakirəsi aparıldı və iştirakçılara öz işi haqqında söhbət etmək, ilk növbədə isə, jurnalistika etikasının problemlərini müzakirə etmək imkanı verildi.

Beynəlxalq qruplarda işləyərkən iştirakçılara bir-biri ilə kəsişən mövzuları müzakirə etmək və peşə sahəsini genişləndirmək, bununla yanaşı, gələcək işlərində onlara kömək edəcək şəbəkələşdirilmiş əlaqələri yaratmaq imkanı verildi. Əlavə kompetensiyanın inkişaf etdirilməsi ilə vorkşopların iştirakçıları üçün yeni profilləri əldə etmək imkanları da yaranır, bu da onlar üçün öz bazar dəyərinin yüksəlməsinin ön şərtidir. İştirakçıların böyük marağı, vorkşopların keçirilməsi zamanı və onlardan sonra da aparılan canlı diskussiyalar və birlikdə hazırlanmış layihələr bu cür yenidən hazırlıq tədbirlərinin jurnalist peşəkarlığının yüksəldilməsi üçün nə dərəcədə əhəmiyyətli olduğunu aydın şəkildə göstərir.

Və sonunda, bu da olduqca əhəmiyyətlidir: bir-biri ilə görüşmək, bir-birini daha yaxşı tanımaq və birgə işləmək imkanı müxtəlif millətlərin nümayəndələri olan jurnalistləri bir çox mövhumat və ya stereo-

tipdən azad etdi. Bütün iştirakçılar ümid edir ki, gələcəkdə öz reportajları ilə yalnız öz auditoriyasını daha yaxşı məlumatlandıra biləcək deyil, eləcə də xalqlar arasında qarşılıqlı anlayışa töhvəsini verə də biləcəkdir.

**Pandeli Pani**
Noyabr, 2017

## MÜNAQİŞƏ-SENSİTİV JURNALİSTİKA – GİRİŞ

Sensasiyalı xəbərlərin, gözlənilməz yeniliyin, operativ eksperimentlərin, tədbir və hadisələrin birbaşa efirdə işıqlandırılması... Kütləvi rabitə sahəsində kütlələrlə münasibətin üsulları dəyişmişdir. Radio, televiziya, qəzetlər bizə eyni zamanda milyonlarla insanlara məlumatı çatdırmaq imkanını verir. Texnoloji irəliləyiş ilə yanaşı, informasiya vasitələrinin cəmiyyətə təsiri həndəsi proqressiya ilə artır. Olduğu yerdən asılı olmayaraq, internetlə sürətli kommunikasiya hər yerdə mümkündür. Biz elə bir dövrdə yaşayırıq ki, media ictimai həyata heç vaxt olmadığı kimi müdaxilə edir. Səhər bir fincan qəhvə və ya çay içirik və onlayn-məqalələri oxuyuruq, avtobusu gözləyərkən sosial şəbəkə və ya mobil telefonda aldığımız bildirişləri yoxlayırıq, "Tvitteri" gözdən keçiririk, axşam televizora baxırıq. Beləliklə, dünyada baş verən yeni hadisələr barədə məlumat bizə fasiləsiz olaraq təqdim edilir.

Kütləvi media sosial qarşılıqlı əlaqə vasitəsidir. O, hər birimizə tribunanı verir ki, sosial və ya siyasi məsələlər barədə fikirlərimizi bildirək və bir-birimiz ilə məlumatı paylaşaq. Kütləvi media hər şeyə nəzarət edir və sonra bizə xəbər çatdırır, yəni kütləvi media sosial nəzarəti həyata keçirir. Bu onun müsbət tərəfidir.

Lakin kütləvi media adi insanın düşüncəsinə birbaşa təsir göstərir, o, manipulyasiya qabiliyyətinə malikdir; bu onun mənfi tərəfi hesab edilir. "Kütləvi kommunikasiya"nın müəllifi Cozef Klapper deyir ki, kütləvi medianın yerinə yetirdiyi iş "razılıq mühəndisliyidən" artıq bir şey deyildir.

Kütləvi medianın mənfi tərəfi cəmiyyətdə münaqişə yetişdiyi zaman daha yaxşı görünür. Münaqişələr olduğu və insanın təhlükəsizliyi qorunmuş olmadığı ölkərlədə jurnalistlər böyük çətinliklər qarşısında dururlar. Qarşı tərəflər mediaya nəzarət etməyə çalışırlar. Senzura səbəbindən məlumat etibarlılığını itirir. Tez-tez elə hallar yaranır ki, auditoriya münaqişə və qonşuluqda baş verən hadisələr barədə məlumatı yalnız reportyor tərəfindən hazırlanmış süjetdən əldə edir. Belə ki, reportyorun münaqişəni hansı şəkildə qablaşdırdığı hər hansı bir partiyanın xeyrinə auditoriyanın xoş münasibətinin formalaşmasını şərtləndirəcəkdir. Bu münaqişəni gücləndirir və ya əksinə, neytrallaşdırır. Daha bir zəif nöqtə ondan ibarətdir ki, jurnalistlərin əksəriyyəti bizə baş verən münaqişələr barədə yalnız məlumatı təqdim edir və münaqişələrin prevensiya və həll etmə yollarının axtarışı onlara aid deyildir.

Buna baxmayaraq, xüsusi olaraq zorakı münaqişə zamanı, jurnalistlər auditoriyaya etibarlı və qərəzsiz məlumatın təqdim edilməsini təmin etməlidirlər ki, cəmiyyət mövcud olan zorakı münaqişə barədə düzgün məlumata malik olsun. Jurnalistlər bu yol ilə münaqişənin həll edilməsinə öz töhvəsini verməlidirlər. Jurnalist münaqişələr zamanı medianın rolu və məsuliyyətini yaxşı anlamalı, provokasiya olmadan cəmiyyətə məlumatı təqdim etməli və qarşı tərəflərə münaqişənin həll etmə yollarının axtarılmasında köməklik etməlidirlər.

Bu münaqişəyə qarşı sensitiv jurnalistika, və ya münaqişə-sensitiv jurnalistika adlanır.

Jurnalistin xüsusi rolu münaqişənin yaranma, onun inkişaf etmə və başa çatma səbəblərinin dərin təhlil edilməsini tələb edir. Mütləqdir ki, jurnalist yeni xəbərləri əldə etmək, xüsusi işləmək və təqdim etmək bacarığına malik olsun mütləqdir, münaqişə və qərarlar barədə məlumatı təqdim edərkən o, münaqişənin sensitivliyini nəzərə almalıdır.

## BİLİK VƏ BACARIQLAR

Jurnalistlər fəaliyyət zamanı tez-tez münaqişəyə cəlb edilir və bəzən bu barədə heç xəbərləri də olmur. Bir çoxumuz münaqişəni silahlı toqquşma ilə eyniləşdiririk. Lakin, münaqişəyə cəmiyyətdə baş verən bütün növ dəyişikliklər səbəb ola bilər, çünki dəyişikliklər səbəbindən tez-tez anlaşılmazlıq yaranır. Buna görə də jurnalist münaqişənin yaranma səbəbləri və həll etmə üsullarını yaxşı bilməlidir.

## MÜNAQİŞƏ NƏDİR?

Münaqişə ikimənalı konsepsiyadır və müxtəlif qrup və müxtəlif kontekstlərdə müxtəlif mənalara malik olur. Münaqişə mənfi fenomen kimi anlaşılır və zorakılıq ilə assosiasiya olunur, lakin zorakılıq və münaqişə sinonimlər deyildirlər. Zorakılıq münaqişənin ifadəsidir, bundan irəli gələrək, sosioloqlar münaqişənin əhəmiyyətini anlamaq üçün daha geniş və müsbət yanaşmanı seçirlər. Bu yanaşmaya əsasən, münaqişə təbii çoxölçülü fenomen kimi müzakirə edilir və həmin fenomen, qayda olaraq, cəmiyyətin daxilində baş verən dəyişikliyin göstəricisidir. Belə ki, münaqişə normal hadisə hesab edilir və cəmiyyətdə dəyişikliklər baş verdiyi zaman sosial və siyasi həyatın legitim hissəsi olaraq qalır. Cəmiyyət ehtiyatlı olmalıdır ki, münaqişə zorakılığa çevrilməsin.

Münaqişə o zaman baş verir ki, əgər iki və ya daha artıq tərəf (fərd və ya qrup) hesab etsin ki, onların maraqları, məqsədləri və ya ambisiyaları bir-birinə uyğun gəlmir, bu zaman onlar düşmən münasibətini ifadə edir və öz hərəkəti ilə digər tərəflərin maraqlarının qorunmasına maneçilik törədirlər. Əgər qoşulmuş tərəflər anlaşılmazlığı və ya münaqişəni sülh yolu ilə və konstruktiv şəkildə idarə edirlərsə, münaqişəni müsbət proses olaraq tanıyırlar. Əgər münaqişə destruktiv qüvvədən istifadə etmədən baş verirsə, o, sosial həyatın tərkib komponenti hesab edilir və cəmiyyətin müsbət inkişafına dəstək olur.

Lakin, əgər tərəflər öz məqsədlərinə sülh yolu ilə nail olmağa çalışmır və zorakılığa əl atırlarsa, münaqişə zorakı olur. Bundan irəli gələrək, münaqişələrin prevensiyası münaqişələrin qarşısının alınması deyil, zorakı eskalasiyanın qarşısının alınmasıdır.

Zorakı münaqişələr qaçılmaz proses deyil və bir gecədə inkişaf etmirlər. Münaqişə dinamik prosesdir, o, müxtəlif formada olur və eskalasiya və deeskalasiyanın müxtəlif mərhələlərini keçir, bunu da mürəkkəb kombinasiyalar və münaqişənin səbəbinin örtülməsi şərtləndirir. Münaqişə tərəflərdən biri status-kvonu dəyişdirən addımları atana qədər latent vəziyyətdə qala bilər. Bir çox hallarda tərəflər cəmiyyətə problemin mövcud olması barədə xəbər verəcək hadisə baş verənə kimi gözlənilən münaqişə barədə bilmirlər. Məsələn, torpaqda mineral resursu aşkar edənə kimi icmalar bir-birinin yanında xoşbəxt yaşaya və ümumi otlaqlardan istifadə edə bilərlər. Sonra gərginlik tədricən artır.

Münaqişə bütün sosial səviyyələrdə yarana bilər. Bu ailə səviyyəsində (valideyn, nikah, bacı-qardaş, uşaqların qəyyumluğu və ailə zorakılığı), rayonlarda, bələdiyyə səviyyəsində, siyasi partiyalar arasında (məsələlər, proqram və manifestlər səbəbindən), qruplar arasında ölkə daxilində və onun hüdudlarından kənarda ola bilər.

Beləliklə, münaqişə münasibətlər zamanı yaranır və aydındır ki, bu münasibətlərin xarakteri münaqişənin növünün formalaşmasına əhəmiyyətli təsir göstərir. Əgər tərəflər uzunmüddətli antaqonist və düşmənçilik tarixinə malikdirlərsə, qarşıdurma olmadan ikitərəfli qənaətbəxş nəticələrə nail olmaq perspektivləri azalır. Əgər tərəflər mübahisəli məsələlərin konstruktiv şəkildə həll etmə tarixinə malikdirlərsə, o zaman münaqişəni sülh yolu ilə həll etməyin mümkünlüyü artır. Tərəflərin inamı və mülahizələri münaqişənin gedişatı zamanı əhəmiyyətli rol oynayırlar.

O, fakt ki, tərəf hər hansı bir halı həqiqət hesab edir, bu inamın doğrudan da ədalətli olub-olmaması kimi eyni dərəcədə əhəmiyyətlidir. Məsələn, bir qrup “babalardan qalan torpağa” iddia bildirdiyi, digəri isə həmin iddiaları tanımadığı zaman münaqişə ehtimal olunur.

Tərəflər məqsədyönlü şəkildə onlar üçün əlçatan olan gücü səfərbər etdiyi zaman münaqişə qaçılmazdır. Bu hökumətlər tərəfindən silahlı qüvvələrdən və üsyançılardan istifadə edilməsi, tətillər, həmkarlar ittifaqları və korporasiyaların bloklaşdırılması, məhbusların aclığı və marqinalizasiya olunmuş vətəndaşların nümayişləri ola bilər. Həmçinin tərəflər maliyyə imkanlarından istifadə edə və ictimai fikri dəyişdirmək məqsədilə reklamı satın ala bilərlər. Strateji baxımdan sosial şəbəkələrdən və mediadan istifadə edə, kollektiv hərəkətlərə - istehlakçıların boykotu, oturaq aksiyalara əl ata bilər – dəstəyi əldə edə bilərlər. Əgər jurnalistlər münaqişə barədə məlumatın çatdırılması zamanı vəziyyəti dəyişdirmək istəyirlərsə, onlar həmin reallığı dərindən dərk etməlidirlər. Doğrudur, münaqişələr bir çox hallarda zorakılığa gətirib çıxarırlar, lakin aydındır ki, qarşıdurma mütləq hal deyildir. Jurnalistlər anlamalıdırlar ki, münaqişə özündə yalnız qarşıdurmanı – qaliblər və məğlub edilənləri əhatə etmir, münaqişə sülh yolu ilə, tərəflər üçün qəbuledilən nəticələr ilə başa çata bilər. Jurnalistlər eləcə də nəzərə almalıdırlar ki, münaqişənin iştirakçı tərəfləri bəzən dərk etmirlər ki, eskalasiya elə bir səviyyəyə çata bilər ki, bütün iştirakçılar üçün ziyan gətirən və destruktiv ola bilər.

## MÜNAQİŞƏYƏ NƏLƏR SƏBƏB OLUR?

Əlbəttə ki, əgər jurnalistlər münaqişəni həll etmək istəyirlərsə, onlar mütləq münaqişənin başlanma səbəblərini öyrənməlidirlər. Ola bilsin ki, jurnalistlər münaqişənin dəqiq səbəblərini heç vaxt eyniləşdirə bilməsinlər, lakin onlar münaqişəyə səbəb olan amillərin təhlilini nəzərə almaqla, yaxşı düşünülmüş hipotezləri formalaşdıra bilərlər. Hipotezlər jurnalistlərə sualların düzgün formalaşmasında kömək edirlər; münaqişənin yaranma səbəblərini daha dərin dərk etmək imkanını verirlər, bu da jurnalistlərə baş verən hadisələri tamdəyərli şəkildə dərk etməkdə dəstək olacaqdır. Onun etiraf edilməsi əhəmiyyətlidir ki, münaqişəni bir neçə səbəb yarada

bilər, bu da düzgün qərarın qəbul edilməsini çətinləşdirir. Jurnalistlər ayıq olmalıdırlar ki, diqqətlərindən heç bir şey yayınmasın.

Baxmayaraq ki, münaqişələr bir çox hallarda etnik, dini, mədəni və ya milli fərqlilikləri nəzərə almaqla izah edilir, həmin terminlər, bəzi ekspertlərin fikrincə, sadəcə nəyisə ifşa etmir. Belə bir fikir mövcuddur ki, insanların fərqli etnik və dini ənənələri münaqişəyə səbəb olmurlar. Münaqişələr etnik və ya dini problemləri əhatə edə bilərlər, lakin bu münaqişələrin əsas səbəblərini başqa yerdə axtarmalıyıq. Məsələn, bu məhdud resurslar və onların bölüşdürülməsi, strukturlu disbalans, məlumatın və kommunikasiyanın çatışmazlığı və s. ola bilər. Xalq yalnız bir-birindən fərqli olduğuna görə qəddarlığı nümayiş etdirmir. Təəccüblü deyildir ki, hakimiyyətdə olanlar üçün etnik, mədəni və dini fərqliliklərə malik olan insanları səfərbər etmək daha asandır. Dünyada ciddi münaqişələrin əhəmiyyətli hissəsi məhz etnik və dini rəngarənglik olduğu yerlərdə baş verir. Mədəni və dini dəyərləri bir-biri ilə paylaşan insanlar daha asan birləşirlər, nəinki həmin dəyərləri paylaşmayan insanlar. Bu fakt münaqişənin səbəblərini izah etmək üçün kifayət qədər əsas vermir. Münaqişələr bir ümumi xüsusiyyətə malikdirlər – onlar fərqli məqsədlər əsasında yaranır və gedişatı zamanı onların forması və eskalasiya səviyyəsi dəyişir. Münaqişəyə səbəb olan ən geniş yayılmış amillər aşağıdakılardır:

*Resursların azlığı:* əgər cəmiyyət və ya millət hər bir vətəndaş üçün orta həyat səviyyəsini təmin etmək üçün kifayət qədər resursa malik deyildirsə, o zaman ehtimal olaraq münaqişə gözləniləndir; belə bir zamanda qrup və fərdlər az olan resurslar üçün bir-biri ilə mübarizə aparırlar. Bu torpaq, su və tibbi xidmətə əlçatanlıq, qida, sığınacaq, iş yerləri və şəxsi irəliləyiş imkanları kimi maddi resurslar ola bilər. Bir çox hallarda bu cür qarşıdurma ona görə yaranır ki, tərəflər müxtəlif resurslardan istifadə etmək istəyirlər. Jurnalist nəzərə almalıdır ki, torpaqdan istifadə edilməsi səbəbindən yaranmış münaqişə bir çox hallarda mədəni və etnik münaqişəyə çevrilir.

Resurslarla əlaqədar olan münaqişələr resurslar bərabər şəkildə bölüşdürülmədiyi zaman daha da kəskinləşə bilərlər. Buna görə də, qruplar ictimai sərvətin payını ədalətli şəkildə ala bilmədiklərini hesab etdiyi zaman münaqişə qaçılmazdır.

*Hakimiyyətin qeyri-bərabər şəkildə bölüşdürülməsi və strukturlu disbalans:* bir çox hallarda münaqişə resurslara nəzarət və onların bölüşdürülməsi ədalətsiz şəkildə həyata keçirildiyi, və ya qruplar tərəfindən ədalətsiz kimi dərk edildiyi zaman yaranır. Əksər hallarda, həmin münaqişələr keçmişdə mövcud olan həll edilməmiş problemlərlə əlaqədardır. Tarixi hallar səbəbindən, dominant etnik və dini qrup hakimiyyətdən istifadə edə bilər ki, imtiyazlı mövqeyi əldə etsin və sonra öz mövqeyindən istifadə etsin ki, resursları qeyri-bərabər şəkildə bölüşdürsün və başqaların hesabına faydanı əldə etsin. Bu cür strukturlu disbalans bir çox hallarda ona görə yaranır ki, müasir dövlətlərin qurulması zamanı etnik eyniliklə manipulyasiya edilir və ya o, gözardı edilir. Münaqişələr eləcə də müxtəlif azlıqların olduğu və dövlət azlıqların maraqlarını təmin etmədiyi dövlətlərdə ehtimal olunurlar. Problemlər, məsələn, azlıqlar qrupu ona dominant qrupunun dilinin sırındığını hesab etdikləri zaman yarana bilərlər.

*İnsani ehtiyac:* bütün insanların və insan qruplarının təmin edilməli olan bir sıra əsas insani ehtiyacları vardır. Bunlar qida, geyim və sığınacaq, ziyandan qorunma, eləcə də eynilik ehtiyacı, ideoloji, siyasi və dini fikirlərini paylaşan insanlarla azad münasibət ehtiyacı kimi fiziki ehtiyaclardır. Açıq, sərbəst şəkildə, hədələmə olmadan ifadə etmənin azadlığı ehtiyacıdır. Bir çox hallarda fərdin eyniliyi qruplarla əlaqədardır. Fərdlər qrupun strukturlarını, fikir və münasibətlərini genişlənmiş öz "mən"-inin hissəsi olaraq hesab edirlər. Əgər nəsə və ya kimsə qrupun eyniliyinə təhlükə yaradırsa, o zaman bu qrupun ayrıca üzvü təhlükəni şəxsi təhlükə kimi dərk edir. Qrupun eynilik ehtiyacının ciddi nəticələri ola bilər, çünki liderlərə qrupun eyniliyinə təsir göstərən məsələlər ətrafında xalqı səfərbər etmək imkanı verilir.

İnsani ehtiyacları təmin etmək istəyi o qədər güclüdür ki, qruplar ənənəvi və sosial baxımdan qəbuledilən siyasi proseslərlə onları təmin edə bilmədiyi zaman onlar mübahisəli strategiyaya müraciət edirlər.

Bu isə o deməkdir ki, onlar dövləti çağırış edə, qanunları poza, zorakılığa müraciət edə və bəzi hallarda, ciddi taktikadan istifadə edə bilərlər. Bu ehtiyacların ən əsas xarakterizəedicisi ondan ibarətdir ki, onlar fərdlərə inteqrasiya olunub, qruplarda dərin köklər atıb və danışıqlar predmetinə çevrilə bilməz. Yəqin ki, ehtiyacları müxtəlif şəkildə həll etmək mümkündür, lakin onları nüfuzdan salmaq qeyri-mümkündür. Ehtiyaclar səbəbindən yaranmış münaqişələri həll etmək üçün prosesləri mütləq elə idarə etmək lazımdır ki, hansı ehtiyaclar barədə razılaşmanın əldə edilə bilinmədiyi müəyyən edilsin. Problemi kreativ yanaşmaları axtarmadan həll etmək qeyri-mümkündür.

*Məlumat və kommunikasiya:* bir çox hallarda münaqişə ona qoşulmuş tərəflərin bir-biri haqqında qeyri-düzgün mülahizələri və fikirləri olduğu və onlar arasında kommunikasiya az olduğu və ya ümumiyyətlə olmadığı zaman yaranır. Əsaslandırılmış qərarları qəbul etmək üçün lazım olan məlumata əlçatanlıq məhdud olduğu zaman problemlər kəskinləşir. Bəzi hallarda, zəif kommunikasiya bacarığına görə, ola bilsin, tərəflər anlamırlar ki, onlar konkret addımları hansı motivlərə görə atırdılar. Münaqişənin iştirakçısı olan tərəflər üçün bir-birindən məlumatın o ümidlə gizlədilməsi səciyyəvidir ki, bu onlara üstünlük verəcəkdir. Bu problemlər daha da kəskinləşə bilər, çünki xalq məlumatı təhrif etməyə və problem ilə əlaqədar olaraq artıq mövcud olan məlumata uyğunlaşdırmağa meyillidir. Bu barışmaq üçün addımları atmağı planlaşdıran və rəqib düşərgədə bunun əhəmiyyətini anlamalarını istəyənlər üçün olduqca çətin ola bilər.

*İnterpersonal münasibətlər:* qruplar arasında münaqişələr bəzən interpersonal münaqişələr səbəbindən, xüsusi olaraq, siyasətin fərdiləşdirilməsi və hiperfərdiləşdirilməsi zamanı yaranır. Cəmiyyətin nüfuzlu üzvləri arasında münaqişəli vəziyyət yarandığı zaman onlar, opponentlər üzərində üstünlüyü əldə etmək məqsədilə, öz tərəfdarlarını səfərbər edirlər. Bu zaman tərəfdarlar mübarizədə iştirak edirlər, çünki onlar li-

derlərin patronajı altındadırlar, onlara səmimi sədaqəti bildirirlər. Münaqişə bu yol ilə inkişaf etdiyi zaman onun öz dinamikası yaranır və bir çox hallarda liderin təsiri sahəsindən kənara çıxır. Bu cür münaqişə öz təbiəti ilə zorakıdır; onu əmlakın məhv edilməsi, fiziki zədələnmə və ölüm müşayiət edir.

*Qeyri-müəyyənlik:* münaqişə tez-tez dəyişikliklər, qeyri-müəyyənlik və çevrilmə zamanı, yeni normalar yarandığı və qruplar bir-biri ilə və keçmiş ilə qarşılıqlı təsir problemi ilə mübarizə apardığı zaman yaranır. Qeyri-müəyyənlik müharibədən sonrakı dövrdə asanlıqla münaqişəyə səbəb ola bilər. Qruplar arasında fərqliliklər tez-tez makrosəviyyədə müzakirə edilir. Lakin, qrupun üzvləri arasında nifrət və kin uzun müddət davam edir. Münaqişələr eləcə də məqsədinə nail olmaq üçün güc tətbiq etməyə alışmış mübarizə aparanlar qəflətən mülki hüquqa tabe olmalı olduqlarını aşkar etdikləri zamanı yarana bilərlər. Bu insanlar üçün demokratik proseslərə qoşulmaq olduqca çətindir, çünki onlar düşünürlər ki, demokratiya onların maraqlarına xidmət etmir. Qeyri-müəyyən vəziyyətlər ilə mübarizənin vəzifəsi xalqda böyük miqdarda silah olduğu və keçici zorakı proses baş verdiyi ölkələrdə kəskin olaraq aktivləşir.

*Məqsədlərin uyğunsuzluğu:* tərəflərin məqsədləri uyğun olmadığı bir çox hallar mövcuddur və bu münaqişəyə səbəb olur. Sərmayəçi çayın sahilində hidroelektrik stansiyanı inşa etmək, konservatorlar isə çayı qorumaq istəyə bilər. Dövlət gölün şirin suyunda balıq tutmaq hüququnu böyük şirkətə verilməsini planlaşdıra, cəmiyyət isə ərazini və yerli balıqçıları müdafiə edə bilər. Qarşıdurma səbəblərinin siyahısı sonsuzdur; bütün tərəfləri təmin edəcək çıxış yolunun axtarılması çağırış olaraq qalır. Onu qeyd etmək vacibdir ki, tərəflərin məqsədləri doğrudan da uyğun olub-olmadığı əhəmiyyətli deyildir. O fakt ki, tərəflər belə hesab edirlər, münaqişənin mövcud olması üçün kifayət olan səbəbdir.

Kateqorizasiya münaqişəni yaradan səbəblərin müəyyən edilməsi zamanı yaxşı köməkçi vasitədir. Reallıq bizə öyrədir ki, münaqişələr nadir hallarda və ya heç vaxt bir ayrıca səbəbə görə yaranmırlar.

Qayda olaraq, baxmayaraq ki, məsələlərdən biri dominantdır, digər amillər eləcə də münaqişənin alovlandırılmasına dəstək olurlar. Məsələn: ola bilsin ki, münaqişə ilk baxışdan strukturlu xarakterli görünə bilər, həmin münaqişə zamanı ayrıca etnik qruplar başqaları ilə müqayisədə imtiyazlıdırlar; lakin həmin zaman insanın ehtiyacları özünü büruzə verir, çünki diskriminasiya olunmuş qrup hesab edəcəkdir ki, onun eyniliyi gözardı edilmişdir. Həmçinin elə bir hallar tez-tez yaranır ki, rəqib siyasi fraksiyalar münaqişənin yaranmasına dəstək olurlar.

## MÜNAQİŞƏ VƏ ZORAKILIQ ARASINDAKI FƏRQ NƏDƏN İBARƏTDİR?

Yuxarıda qeyd etdiyimiz kimi, iki qarşı duran tərəf arasında münaqişə səhvən zorakılıq hesab edilir. Zorakılıq və münaqişə sinonimlər deyildirlər. Zorakılıq münaqişənin ifadəsidir və qəsdən, digər tərəfi zədələmək məqsədilə, müəyyən hərəkətləri törədən bir partiyanı (ayrıca şəxsi və ya qrupu) əhatə edir.

Jurnalistlər tərəfindən aşkarcasına zorakı fiziki münaqişənin eyniləşdirilməsi və təsvir edilməsi asan şəkildə həyata keçirilir. Zorakılıq zamanı fiziki gücün tətbiq edilməsi mütləq deyildir. Cəmiyyətə böyük ziyan vuran digər növ zorakılıq da mövcuddur, məsələn, qaçqınlar üçün qidanın və ya digər maddi malın çatdırılmasının dayandırılması. Eləcə də xalqın özünüeyniləşdirməsinin əsasını sarsıdan istənilən hərəkət – insan hüquqlarına xələl yetirilməsi və ya mülki və ya siyasi hüquqların məhdudlaşdırılması zorakılıq hesab edilir. Bu baxımdan, şifahi təhqir və nifrət dili həmçinin zorakı hərəkət kimi müzakirə edilməlidir, çünki hücumçuların məqsədi başqa şəxsə ziyanın vurulmasıdır.

Bununla belə, aşkar şəkildə ifadə edilmiş zorakılıqdan başqa cəmiyyətdə bir çox digər növ zorakılıq mövcuddur. Reportyorlar üçün onları görmək və izah etmək daha çətindir. Gizli zorakılığın işıqlandırılması

olduqca əhəmiyyətlidir, əgər onu cilovlamaq üçün addımlar başlanğıcında atılmamışdırsa, çünki bu cür zorakılıq aşkar zorakılığa çevrilmək potensialına malikdir. Bu cür zorakılığın misalları aşağıdakılardır:

*Mədəni zorakılıq* bir sosial qrupun digər sosial qrupu necə dərk etdiyinə əsasən yaranır. O, fiziki zorakılığı gücləndirən və müxtəlif forma alan danışıq üslubunu, fotoları və ya fikirləri əhatə edə bilər:

*Nifrət dili:* etnik və mədəni qruplar açıq şəkildə, nifrət dili ilə bir-biri barədə danışırlar. Bir qrup digər qrupu onu narahat edən çətinlik və ya problemlərin yaranmasında günahlandırır. Günahlandırılan qrupu məhv etmək üçün tez-tez zorakılıq həvəsləndirir.

– *Ksenofobiya:* hər hansı ölkənin nifrəti və ya qorxusu həmin ölkə barədə səhv təsəvvürlər yaradır və nəticədə həmin ölkə ilə münaqişəyə səbəb olan siyasətə dəstək olur.
– *Müharibə qəhrəmanları barədə əsatir və əfsanələr:* cəmiyyət, hansının məşhur mahnıları və tarixi kitabları bir qrupun keçmiş qələbələrini ideallaşdırır, digər qrupda nifrəti alovlandırır.
– *Müharibənin dini bəraəti:* başqaların fikirlərinin artıq dərəcədə dözümsüzlüyü münaqişəyə şərait yaradır.
– *Gender ayrı-seçkiliyi:* kişilərə qarşı tətbiq edilməyən qanunların və təcrübənin qadınlara qarşı tətbiq edilməsi zorakılıq formalarından biridir.

*Strukturlu zorakılıq bəladır.* O, qrupun və ya cəmiyyətin ənənəvi davranışı və qanunlarına əsaslanır. Cəmiyyət bu bəlaya yol verir və ya gözardı edir.

– *İnstitusional irqçilik və ya seksizm:* irq və cinsə görə fərqləndirmək və qeyri-bərabər davranmaq imkanını verən qanunlar və təcrübə.
– *Kolonializm:* ölkənin özünümüəyyən etmək imkanının mövcud olmaması. Xarici ölkənin hakimiyyəti məcburi olaraq əhəmiyyətli qərarların qəbul edilmə proseslərinə nəzarət edir.
– *İfrat dərəcədə istismar:* köləlik.
– *Yoxsulluq:* dünyada münaqişənin ən çox yayılmış səbəbi.

– *Korrupsiya və nepotizm:* hökumətin qərarlarına rüşvətxorluq, favoritizm, ailə və ya tayfa əlaqələri təsir göstərirlər.
– *Strukturlu seqreqasiya:* xalqı öz istəyinə qarşı olaraq ayrıca qruplar şəklində yaşamağa məcbur edən qanunlar.

Bu növ zorakılığın eyniləşdirilməsi münaqişənin işıqlandırılması və təhlili zamanı olduqca əhəmiyyətlidir. Bir çox hallarda məhz bu növ zorakılıq birbaşa fiziki qarşıdurmanın real səbəbi olur. Nəzərə almalıyıq ki, əgər mədəni və strukturlu zorakılıq gözardı edilirsə, fiziki zorakılığın dayandırılması kifayət deyildir, çünki o, bir daha təkrarlana bilər.

## MÜNAQİŞƏ-SENSİTİV NƏ DEMƏKDİR?

Münaqişə-sensitiv deməkdir ki:

- Konteksti anlamalısınız, bu da Sizin hərəkət sahənizin bütün sosial-iqtisadi və siyasi gərginliyini, əsas səbəblərini, mədəni və tarixi fonunu və strukturlu amillərini anlamaq deməkdir, çünki onlar zorakı potensiala malikdirlər;
- Siz intervensiya ilə kontekstin qarşılıqlı təsirini anlamalısınız;
- Bu qarşılıqlı təsirə uyğun olaraq hərəkət edin ki, mənfi nəticənin qarşısını alaraq maksimal olaraq müsbət nəticəyə nail olasınız.

## JURNALİSTLƏR ÜÇÜN MÜNAQİŞƏNİN TƏHLİLİ

Münaqişədə olan vətəndaşların əsaslandırılmış qərarları qəbul etməsi və münaqişəni həll edə bilməsi üçün onların yaxşı jurnalistikası olmalıdır. Jurnalistlər arasında, baş verən hadisələr və zorakı münaqişə haqqında sadəcə çılpaq faktları təqdim etmək tendensiyası mövcuddur. Bu onun üçün kifayət deyildir ki, dinləyici, oxucu və tamaşaçı həqiqətdə nəyin baş verdiyini anlasın. Əgər jurnalistlər yalnız peşəkar tamaşaçılar və xəbərləri

yayanlardırsa, vətəndaşlar münaqişəni jurnalistlərin onlara təqdim etdiyi kimi anlayacaqlar. Lakin əgər yeni xəbərləri çılpaq faktlar xaricində axtarıb tapsaq, vətəndaşlara daha çox məlumatı və münaqişənin həll etmə yollarını təklif edəcəyik, vətəndaşlar münaqişəni başqa nöqteyi-nəzərdən görəcəklər. Əgər jurnalistlər tərəflərə münaqişənin həll etmə yollarını təklif etmək istəyirlərsə, onlar münaqişənin necə başladığını, münaqişənin iştirakçıları kim olduğunu, münaqişəni sülh yolu ilə başa çatdırmaq imkanının olub-olmadığını yaxşı bilməlidirlər.

Münaqişənin işıqlandırılması zamanı jurnalistlər nəyin və nədən baş verdiyini müəyyən etməkdə xalqa kömək edəcək sualları verməlidirlər. Münaqişələrin təhlili zamanı, jurnalistlər daha çox məlumat mənbələrini eyniləşdirə bilərlər; onlar eləcə də onu müəyyən edə bilərlər ki, diplomatlar və danışıqları aparanlar nəyi etməyə çalışırlar. Münaqişəyə müxtəlif nöqteyi-nəzərdən baxılması və onu təhlil edilməsi, münaqişənin xalqa hansı təsirin göstərilməsinin nəzərə alınması və etibarlı məlumatın çatdırılması tərəflərə münaqişənin daha yaxşı dərk edilməsində kömək edir. Beləliklə, münaqişənin təhlili münaqişə-sensitiv jurnalistikanın əsas tərkib hissəsidir. Münaqişənin təhlili müxtəlif səviyyələrdə mümkündür (məsələn, yerli, regional, milli və s.). Təhlil zamanı bu səviyyələr arasında əlaqənin mövcud olub-olmadığı müəyyən edilməlidir. Eləcə də münaqişənin qarşıqlılı əlaqədə olan digər sistemlər ilə fasiləsiz əlaqələrin yaradılması əhəmiyyətlidir.

Münaqişənin xarakteri və tərkib hissələrinin təhlili dörd əsas elementdən ibarətdir:

1. **Münaqişənin amilləri:** artıq qeyd etdiyimiz kimi, münaqişə çoxaspektli səbəb və amillərə əsaslanır. Müxtəlif növ səbəblər bir-birini örtür və qarşılıqlı əlaqədədir. Bizi zorakı münaqişəyə aparan ayrıca duran hər hansı bir amil mövcud deyildir. Səbəb və amillər sistemli (strukturlu), proksimal (imkan verən), birbaşa (səbəb olan) ola bilərlər. Münaqişə zonasında daxili və xarici amillər təsir göstərir.

- Sistemli səbəblər: strukturlu vəziyyət: sistemli determinantlar tərəflərin maddi vəziyyətinin obyektiv dəyişikliklərinə səbəb olur; mühitin pisləşməsi, əhalinin artması, resursların azlığı və rəqabət, kolonial və ya soyuq müharibənin irsi, dəyər və ənənələrin məhv edilməsi, yoxsulluq və etnik mənsubiyyət münaqişənin sistemli səbəblərinin misallarıdır.

  Münaqişənin sistemli səbəbləri geniş yayılmışdır və böyük sayda insanlara aiddir. Sistemli səbəblər tədricən münaqişənin yaranma imkanına təsir göstərir. Beynəlxalq proqramlar və ya hökumətin siyasəti, hansının məqsədi sistemli səbəblər üzərində işləməsi yolu ilə münaqişələrin qarşısının alınması və ya onların azaldılmasıdır, nəticələri uzunmüddətli perspektivdə verir.

- Proksimal səbəblər: siyasi və institusional amillər. Proksimal mənbələr sosial, siyasi, kommunikasiya prosesləri və institutları daxilində mövcud olan problemdir və onlar ümumi vəziyyətin insanların həyatı və davranışına təsirini gücləndirir. Proksimal amillər sistemli şərtlərin zorakı reaksiyalara səbəb olub-olmayacağını və ya münaqişənin iştirakçısı olan tərəflərin münaqişənin həll edilməsinin daha çox sülh yollarını tapıb-tapa bilməyəcəklərini müəyyən edir. Proksimal determinantlar və zorakı münaqişə arasında əlaqə asanlıqla müəyyən edilir. Hakimiyyətin siyasəti, sosial təşkilatlar, iqtisadi islahat proqramları, siyasi liberalizasiya problemləri, militarizasiya və xarici hərbi yardım – bütün bunlar münaqişənin proksimal mənbəyi ola bilər.

- *Birbaşa səbəblər:* ayrıca əsas hərəkət və hadisələrdə zorakı münaqişənin bilavasitə və birbaşa səbəbləri, və ya onları gözləyərkən axtarmalıyıq. Məsələn, hökumət üsyanı planlaşdıran məzlumlar qrupuna hücum edir. Bu amillər aşkardır və onların təsirini asan müəyyən etmək olar.

- *Xarici və daxili amillər:* münaqişənin səbəbinin mənbəyi daha bir vacib ölçüdür, bu da münaqişədən sülh yolu ilə başa çatmasına qədər – ölkənin mövqelərinin bütün spektrinə təsir göstərir. Daxili

və regional amillər, üçüncü tərəfin eqzogen amilləri kimi, gərginliyi azaltmaq məqsədilə zorakı yanaşmaların aradan qaldırılmasına şərait yaradır. Münaqişənin daxili və xarici determinantları sistemli, proksimal və birbaşa ola bilərlər.

2. **Münaqişənin iştirakçıları:** münaqişəyə qoşulmuş və ya münaqişə nəticəsində zərərçəkmiş bütün şəxslərə aiddir. Bunlar aşağıdakılardır: münaqişədə iştirak edən şəxslər, qruplar və institusiyalar, hansılara münaqişə müsbət və ya mənfi təsir göstərmişdir, eləcə də münaqişənin həll edilməsinə qoşulmuş şəxslər. Münaqişənin aşkar və gizli iştirakçılarını eyniləşdirmək bacarığı münaqişənin reportyoru üçün əhəmiyyətlidir, çünki münaqişə iştirakçılarının eyniləşdirilməsi aşağıdakıları müəyyən etməkdə kömək edir:

- İştirakçılar tərəfindən bildirilmiş maraqlar;
- İştirakçıların gizli planları;
- İştirakçıların münasibətləri və onların bu cür qarşılıqlı əlaqəyə qarşı münasibəti (əlaqələr / ziddiyyətlər);
- Öz gündəliyini yerinə yetirmək üçün iştirakçıların əlində olan resurslar (resurslar);
- Münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışan iştirakçılar (zəruri resurslar).

3. **Münaqişənin dinamikası** – münaqişənin profili, iştirakçılar ilə səbəblər arasında qarşılıqlı əlaqə.

4. **Sülh üçün imkanlar:** iştirakçılar arasında sülh potensialını müəyyən etmək məqsədilə, “spoylerlərin” və ya “maraq qruplarının” (münaqişənin gücləndirilməsinə töhvəsi olan) əsaslı təhlili. Bu cür təhlilin aparılması zamanı məlumatın sənədləşdirilməsi mütləqdir; Siz əlavə məlumatı alacaqsınız və müsahibələri yazacaqsınız ki, Sizin təhlilinizin nə dərəcədə tamdəyərli və obyektiv olduğu müəyyən edilsin. İdeya ondan ibarətdir ki, münaqişənin tərəfləri sülhün ümumi əsası kimi tanıya biləcəyi obyektiv səbəblər müəyyən edilsin.

## MÜNAQİŞƏNİN ESKALASİYA MƏRHƏLƏLƏRİ

Münaqişənin reportyoru üçün münaqişə mərhələlərini bilmək əhəmiyyətlidir. Kommunikasiya nəzəriyyəsinin peşəkarı, alim Fridrix Qlass[1] eskalasiyanın doqquz mərhələsini ayırır. Üçüncü mərhələ media üçün əhəmiyyətli bir mərhələdir, çünki o, münaqişənin iki tərəfi arasında kommunikasiyanın mövcud olmamasının doldurulmasını nəzərdə tutur. Münaqişənin yaxşı işıqlandırılması və qərəzsiz məlumatın çatdırılması nəticəsində, münaqişənin hər iki tərəfi bir-birinin fikirlərini nəzərə ala bilər və beləliklə, münaqişənin sonradan eskalasiyasının mümkünlüyü azala bilər.

1. **Gücləndirmə:** fikirlər mövqelərə keçir. Münaqişəli vəziyyətlərdə dərk etmə və rollar konsolidasiya olunub. Buna baxmayaraq, hər iki tərəf yenə də inanır ki, anlaşılmazlığın şifahi olaraq aradan qaldırılması mümkündür.
2. **Polarizasiya, debatlar:** ümumi məqsədlər hələ də mövcuddur, lakin fərdi maraqların artması qeyd edilir. Gözləniləndir ki, mövqelərin itirilməsinin arzuolunmayan nəticəsi ola bilər. Hər bir tərəf digəri ilə müqayisədə öz üstünlüyünü təsdiq etməyə çalışır. Birbaşa problemə aid olmayan davranış qaydaları təsbit edilir. Hələ də maraq mövcuddur ki, canlı əlaqələri saxlasınlar, lakin taktiki manevrləşdirmə artır.
3. **Sözlər deyil, hərəkətlər:** ümumi təsəvvür şübhə yaratmır; normadan kənarlaşmış məsələlərə diqqət yetirilir. Digər tərəfin cavab vermək hüququ inkar edilir. Dialoq aparılmır. Normanı pozan hərəkətlər cavab reaksiyasını yaradır.
4. **İfadələr və koalisiya:** dəyişkən münasibət dəyişir və qələbədə fokuslaşdırılır; opponentin neqativ imici artıq mövcud deyildir, kiminsə məşhurlaşmış sifəti görünür. Özünüdərketmədən sonra opponent tərəfin atdığı addımlar olur.

---

[1] Friedrich Glasl: Konfliktmanagement, Vol. 2, Bern/Stuttgart, 2002, p.216ff.

5. **Üzün itirilməsi:** öz mövqelərini möhkəmləndirmək məqsədilə digər tərəfin ictimai defamasiyası baş verir. Qruplar arasında birbaşa əlaqənin yaradılmasının istənilən forması mümkün deyildir. Digər tərəfə qarşı nifrət aşkardır.
6. **Strategiya və hədələmə:** münaqişənin tərəfləri geriyə çəkilmə yollarını kəsiblər. Zorakı hərəkətlər artır. Düşmənin hərəkətləri aqressiv olaraq hesab edilir, öz davranışını isə cavab reaksiya kimi nümayiş etdirirlər. İrrasional hərəkətlərin sayı artır. Məqsəd müxalifət və vəziyyətə mütləq nəzarətidir.
7. **Məhdud destruktiv zərbələr:** niyyət – öz mövcudluğunu təmin etmək məqsədilə destruktiv hərəkətlərlə düşmənin məhv edilməsi. Hər bir tərəf hesab edir ki, digər tərəf bu cür hərəkətləri törədə bilər, bunun qarşısını almaq məqsədilə onlar məhv edilməlidirlər. Nəyin bahasına olur-olsun öz məqsədinə nail olunmalıdır.
8. **Fraqmentasiya:** məhvedici zərbələr rəqibi fraqmentlərə bölmək, həyat əsasını məhv etmək, dəstəkləyicilərdən təcrid etmək məqsədilə vurulur. Aqressiv hərəkətlər artır. Məqsəd rəqibi elə şəkildə sarsıtmaqdır ki, özünün mövcudluğu üçün təhlükə yaranmasın.
9. **Birlikdə uçurumda:** istənilən zorakılıq formasından, özünüməhvetmə təhlükəsini yaradan formasından belə istifadə edilir. Ən yaxın məqsəd düşmənin məhv edilməsidir.

### Münaqişə necə həll olunur?

Jurnalistlər üçün onu bilmək əhəmiyyətlidir ki, münaqişəyə son qoyulmasının bir neçə yolu mövcuddur. Aşağıdakı təsəvvür edilən münaqişə barədə düşünün: iki qrup arasında münaqişə portağal səbəbindən baş verir. Portağal ağacı bir qrupun torpağında durur, lakin portağal ağacının məhsulu digər qrupun torpağında sallanır. Hər iki qrup həmin portağalı əldə etmək istəyir. Bu münaqişənin ən azı dörd həll etmə yolu mövcuddur:

1. **Bir tərəfin üstünlüyü:**

   a) İki qrup zorakı şəkildə bir-birinə qarşı hərəkət edir və portağalı güclü olan udur. Uduzmuş tərəf hirslənir və qisas almaq istəyir.

   b) Hakim bir qrupun xeyrinə qərar qəbul edir, lakin ola bilsin ki, hakim korrupsiyalı, yavaşdır və onun dəyəri bahalıdır. Uduzmuş tərəf narazıdır.

   c) Təzminat. Bir qrup digərinə pul ödəyir və portağalı saxlayır. Bu baha başa gələ bilər.

2. **Geriyə çəkilmək:**

   a) Bir və ya hər iki qrup geriyə çəkilir. Münaqişə həll olunmamış qalır, heç bir qrup məmnun deyildir.

   b) Bir qrup portağalı məhv edir və ya kiməsə verir. Portağalın məhv edilməsində mümkün zorakılıq vardır. Hər iki tərəf portağalı itirir.

   c) Qruplar hərəkət etmirlər**.** Portağal çürüyür, o, hər iki qrup üçün məhv edilmişdir.

3. **Kompromiss. Daha faydalı yol:**

   a) Ağacı kəsin, hər iki qrup onun hər hansı bir hissəsini alacaqdır.

   b) Portağalı soyun, qruplar portağal dilimlərini bir-bir alacaqdırlar. İndi portağal elə bir mənbədir ki, onu bölüşdürmək mümkündür. Yəqin ki, tamamilə bərabər şəkildə deyil, lakin hər iki qrup məmnundur.

   c) Portağalı sıxın. Bu portağalın başqa şəklidir. O, indi digər dəyərlərə malik olan mənbədir. Yəqin ki, tamamilə bərabər şəkildə deyil, lakin hər iki qrup məmnundur.

4. **Transsendentlik. Münaqişənin real həll etmə yolu:**

   a) Portağala qarşı marağı ifadə edən insanları cəlb edin. Qruplar bütün portağal üçün mübarizə aparmaq hüququna malik deyildirlər. Münaqişəyə qoşulmuş qrupların qonşuluğunda yaşayan insanlar

qərar verəcəkdirlər ki, portağal ictimai resursdur və hər iki tərəfi münaqişəni zorakılıq olmadan həll etməyə çağırırlar.

b) Daha bir portağalı əldə edin. Cəmiyyətin üzvü və ya qonşu bazara gedir və artıq portağalı olan və iki qrupa bölüşdürə bilinən və bununla münaqişənin gərginliyini azalda bilən kimisə tapır.

c) İki qrup, cəmiyyətin təsiri ilə, portağal tortunu bişirməyə, bazarda satmağa və pulu bölüşdürməyə razılaşır. Portağal indi başqa formaya çevrilir. O, indi gəlir mənbəyidir.

ç) İki qrup portağal toxumunu səpir. Portağal plantasiyasını yaradır və birlikdə daha böyük icma üçün uğurlu portağal təchizatçılarına çevrilirlər. Ən yaxşı çıxış yolu.

Bu o demək deyildir ki, qonşular marş ilə getməli və iki qrupa necə hərəkət etməli olduqları barədə göstəriş verməlidirlər. Lakin münaqişənin həll edilməsi zamanı daha geniş cəmiyyətin təkliflərinin dinlənilməsi və onların nəzərə alınması əhəmiyyətlidir.

**Bu təhlilin məqsədi nədir?** Aydındır ki, münaqişəyə müxtəlif şəkildə baxmalıyıq.

- Münaqişəyə bölüşdürülməsi mümkün olan mənbə kimi baxarkən zorakı münaqişə daha az ehtimal olunur.
- Daha böyük icma maraq göstərdiyi zaman, ona təzyiq gücləndirilir ki, zorakı metodlardan istifadə edilməsin.
- Bir neçə alternativ yol mövcud olduğu təqdirdə, zorakılıqdan daha az istifadə edilir. Daha çox alternativ daha az münaqişə deməkdir. Daha çox alternativ yolunu əldə etmək məqsədilə, daha çox xalqı cəlb edin. Bu ideyaları paylaşmaq və münaqişəyə başqa şəkildə baxmaq imkanını verir. İki tərəf dalanda olduğu təqdirdə, dini liderlər, işgüzar cəmiyyət, vətəndaş cəmiyyəti, mehriban qonşu ölkə və ya beynəlxalq təşkilatlar kimi cəmiyyətin digər üzvləri müxtəlif baxışları və münaqişənin alternativ həll etmə yollarını təqdim edirlər.

## MÜNAQİŞƏNİN HƏLL EDİLMƏSİ VƏ SÜLHÜN BƏRQƏRAR OLMASINA JURNALİSTLƏRİN TÖHVƏSİ

Münaqişə öz-özünə sonra çatmır. Anlaşılmazlığa və münaqişələrə son qoymaq üçün müəyyən tədbirlər görmək lazımdır. Bəzi münaqişəni dialoq və sülh yolu ilə həll etmək mümkündür, digər hallarda isə eskalasiya baş verir və münaqişə silahlı qarşıdurmaya çevrilə bilər.

Münaqişənin həll edilməsinin ən vacib vasitələrindən biri kommunikasiyadır. İki tərəfin sülh yolu ilə qərar qəbul etməsi üçün tərəflər arasında dialoq aparmaq lazımdır. Bu növ kommunikasiyanı mübahisə və münaqişənin sülh yolu ilə həll edilməsi müşayiət edir. Məhz burada münaqişənin həll edilməsi işində jurnalistikanın aparıcı rolu özünü büruzə verir. Jurnalistlər köhnə elitanın onlara etdiyi hərəkətlərə görə yaranan incikliyi unutmalıdırlar. Onlar digər tərəfləri qoşmağa və yeni fikirləri dinləməyə çalışmalıdırlar. Münaqişənin yaxşı işıqlandırılması, qərəzsiz və dəqiq məlumatın çatdırılması münaqişələrin azaldılmasına şərait yaradır.

## MÜNAQİŞƏDƏ MEDİANIN ROLU

Mütləqdir ki, media öz rutin işinin yerinə yetirilməsi zamanı dərk etsin ki, o, bilərək və ya bilməyərək münaqişələrin neytrallaşdırılmasına və ya əksinə, gərginləşdirilməsinə səbəb olur. Münaqişə zamanı media xüsusi rol oynayır, bu da bizi sülh yolu ilə qərara gətirib çıxarır.

- Münaqişədən əvvəlki mərhələ: kütləvi informasiya vasitələri münaqişədə iştirak edən tərəflərin münaqişəli vəziyyət yarada bilən rəqib maraqlarını işıqlandırırlar ki, danışıqlar yolu ilə anlaşılmazlığı həll etmək üçün vahid əsası yaratsın və beləliklə, sülh yolu ilə mübarizə tələbini irəli sürsün.
- Münaqişənin gedişat dövrü: bu mərhələdə media insan, iqtisadi, sosial və siyasi resurslardan istifadə edir, bununla da sülhün zərurətini gücləndirir.

- Münaqişədən sonrakı vəziyyət: media tərəflər arasında sülh yolu ilə razılaşmaların reallığa çevrilmə prosesini müşahidə edir və onların hüquqi həyata keçirilməsini təmin edir.

Aşağıda münaqişənin həll edilmə elementləri göstərilib, bunu da yaxşı jurnalist tərəflərə çatdırmalıdır. Bu onlara qərarların qəbul edilməsi zamanı kömək edəcəkdir:

1. *Kommunikasiya məkanının doldurulması:* media münaqişə zamanı tərəflər arasında mövcud olan ən əhəmiyyətli kommunikasiya kanalıdır. Bəzən tərəflərdən biri media vasitəsilə hədələməni təşkil edən mesajları yayır. Bəzi hallarda isə tərəflər bir-biri ilə media və jurnalistlər vasitəsilə söhbət edirlər.
2. *Biliyin ötürülməsi:* hər bir tərəf digər tərəfə ona barışmaqda nəyin maneçilik törətdiyini bilməlidir. Jurnalistika hər bir tərəfin, onun siyasəti və ya hərəkətetdirici maraqları kimi xüsusi çətinliklərini öyrənir və mövcud olan vəziyyəti yaxşı dərk etməkdə digər tərəfə dəstək olur ki, sadə və sürətli qərarların qəbul edilməsinin qarşısı alınsın.
3. *Etibarın gücləndirilməsi:* etibarın az olması münaqişəyə dəstək olan əsas amildir. Kəskin məsələlərin hərtərəfli olaraq yaxşı öyrənilməsi və onların aşkar edilməsi ilə media şübhəni aradan qaldıra bilər. Müxtəlif barışıq misallarını işıqlandırmaqla media-vasitələr eləcə də göstərə bilərlər ki, qərarın qəbul edilməsi mümkündür.
4. *Səhv təsəvvürlərin korrektə edilməsi:* media hər iki tərəfin bir-biri haqqında səhv təsəvvürlərini öyrənir və işıqlandırır. Bununla tərəflərə öz fikirlərinə yenidən baxmaqda və münaqişəyə son qoyulması üçün daha çox səy göstərməkdə dəstək olur.
5. *Humanizmə çağırış:* digər tərəfi daha yaxşı tanımaq və ona qarşı hörmət ifadə etmək əhəmiyyətli addımdır. Buna görə də danışıqları aparanlar hər iki tərəfi bir otağa yerləşdirirlər. Yaxşı jurnalistika süjetə real insanları daxil edir və bu məsələnin onlara necə təsir göstərdiyini təsvir edir.

6. *Əsas maraqların eyniləşdirilməsi:* münaqişə zamanı mütləqdir ki, hər iki tərəf digər tərəfin az-çox əhəmiyyətli maraqlarını bilsin. Yaxşı jurnalist sərt suallar verir və liderlərin dediklərinin həqiqi fikrini anlamağa çalışır. O, eləcə də liderin maraqları xaricində mövcud olan, daha böyük qrupun maraqlarını müəyyən etməyə çalışır.

7. *Emosiyanı ifadə etmə vasitəsi:* münaqişənin həll edilməsi zamanı hər bir tərəf narazılığı və ya hiddətini ifadə etmək imkanına malik olmalıdır. Əks təqdirdə, həddindən artıq gərginlik onların emosional partlayışına səbəb olacaq və iş pisləşə bilər. Media çıxış yolunu tapa və hər iki tərəfə söhbət etmək imkanını verə bilər. Mübahisə zorakı münaqişəyə çevrilməzdən öncə bir çox hallarda küçədə dalaşmaqla deyil, medianın köməyi ilə həll edilə bilər.

8. *Münaqişənin yenidən dərk edilməsi:* problemin başqa şəkildə təsvir edilməsi gərginliyi azalda və danışıqların başlanmasına təkan verə bilər. Yaxşı jurnalistikada redaktor və reportyorlar hər zaman problemi başqa nöqteyi-nəzərdən görməyə, alternativ baxışı tapmağa, yenidən qiymətləndirməyə çalışırlar, nəticədə isə eyni hadisə auditoriyanı yenə də cəlb edir. Yaxşı jurnalistika hər iki tərəfə münaqişəni yenidən dərk etməyə təkan verir.

9. *Nüfuzun saxlanılması, konsensusun əldə edilməsi:* tərəflər münaqişəni həll etməyə çalışarkən, onlar öz dəstəkləyicilərinin qorxusunu yox etməlidirlər. Onların ifadələrini işıqlandırmaqla media münaqişədə olan liderlərə, bunun üçün uzaq yerlərdə qaçqın və ya köçkünlərə müraciət etməli olduqları halda belə, nüfuzunu saxlamaq və konsensusu əldə etmək imkanını verir.

10. *Qərarın qəbul edilməsi:* yekun olaraq, münaqişədə iştirak edən hər iki tərəf, narazılığa reaksiya vermək məqsədilə, gündəlik olaraq konkret təklifləri təqdim edir, yaxşı reportajın verilməsi zamanı tərəflərə onların qərarları barədə suallar verir və sadəcə şikayətlərin ritorikasına qayıtmaq imkanını vermirlər. Yaxşı jurnalistika qərarların fasiləsiz axtarılma prosesidir.

11. *Hakimiyyət balansının həvəsləndirilməsi:* münaqişənin iştirakçısı olan qruplar, bərabərsizliyə baxmayaraq, inanmalıdırlar ki, əgər digər tərəflə danışıqları aparmaq üçün görüşsələr, onlara diqqət ayrılacaqdır. Yaxşı jurnalistika danışıqlara şərait yaradır, çünki reportaj obyektiv və balanslaşdırılmışdır. O, bütün tərəflərə diqqət ayırır; şikayətləri dinləmək və qərarları axtarıb tapmaq məqsədilə hakimiyyətin balanslaşdırılmasına dəstək olur.

## SÜLH JURNALİSTİKASININ[1] KONSEPSİYASI

Jurnalistlər xəbərləri kimin üçün və kim haqqında işıqlandırdığı xalq qarşısında məsuliyyət daşıyırlar. Bəzi jurnalistin fikrincə, onlar yeni xəbərlər verildikdən sonra inkişaf edə bilən hadisələr üçün məsuliyyət daşımırlar – “biz münaqişəni futbol matçı kimi işıqlandırırıq, biz sadəcə hadisələri təsvir edirik”. Çünki jurnalist istintaqı və münaqişənin işıqlandırılması müdaxilə deməkdir, bu da mövqelərin dəyişdirilməsinə səbəb ola bilər, sülh jurnalistikası məsuliyyət qarşısında durur.

Sülh jurnalistikası müharibələrin və ya münaqişələrin işıqlandırılması zamanı onları sülh yolu ilə həll etmək məqsədilə müraciət edilən yanaşmadır. O, münaqişənin səbəblərinin, nəticələri və motivlərinin ümumi şəklini daha yaxşı anlamaq imkanını verir. Bunun əksi olaraq, jurnalistlər tərəfindən, nəticədə münaqişənin iştirakçısı olan tərəflər arasında gərginliyin artması və narazılığın dərinləşdirilməsini yaradacaq şəkildə verilmiş xəbərlər ola bilər.

---

1 Termin və konsepsiya 1970-ci ildə İohan Qaltun (Norveçin sülh və münaqişələrin tədqiqatının təsisçisi) tərəfindən yaradılmışdır. O, müharibə və münaqişələrin işıqlandırılması üzərində işləyən jurnalistlər üçün sülh jurnalistikasını, özünüdərketməyə əsaslanan iş konsepsiyası kimi, müzakirə edirdi.

Jurnalistlər robotlar, neytral və qeyri-partiyalı şəxslər deyildirlər. Onların öz dəyərləri, subyektiv fikri vardır və öz ölkənin, dininin və etnik qruplarının dəyərlərini paylaşırlar. Məhz buna görə də, peşəkar jurnalistlər öz mülahizələrinin və qeyri-obyektivliyinin qarşısını almaq üçün müəyyən edilmiş din[1], qərəzsizlik[2] və məsuliyyət[3] standartı ilə işləyirlər.

Lakin sülhün tədqiqatçısı İohan Qaltunun fikrincə, cəmiyyətdə böyük təhlükə mövcud olduğu zaman yeni xəbərlərin mediası, adətən, b.a. "aşağı yolu" seçir – müharibənin gedişatı barədə məlumat verir, müharibəni aparan elitanı işıqlandırır, qələbə-məğlubiyyətin nəticələrini təsbit edir,

---

[1] Düzgün məlumatı əldə etmək ən əhəmiyyətlidir. Ötürülmə zamanı hər şey dəqiq təsvir edilməlidir – adlar düzgün tələffüz edilməli, faktlar baş verdiyi kimi təqdim edilməlidirlər, deyilənlərin real əhəmiyyəti aydın olmalıdır, işıqlandırmaya başlanmazdan öncə yaxşı jurnalist sübutları və dəqiq faktları axtarır. Yaxşı jurnalist məlumatı əldə etməyə tələsməlidir, lakin ilk növbədə, jurnalist bu hüququ əldə etməlidir. Əgər xalq qoruxur ki, jurnalistlər onun dediklərini dəqiq təkrarlaya bilməyəcək və hadisələri həqiqətdə baş verdiyi kimi təsvir etməyəcəklər, o, jurnalistlərlə danışmır.

[2] Qərəzsizlik (balans): jurnalistikanın demək olar ki, bütün kodlarında qərəzsizlikdir. Yaxşı jurnalist balanslaşdırılmış reportajı hazırlamağa çalışır. Balans hər iki tərəfin qoşulmasını nəzərdə tutur. Münaqişədə hər zaman iki tərəf olur. Vətəndaşlara onu bilmək lazımdır ki, bu və ya digər tərəf nə deyir və bu onlara nə dərəcədə aiddir. Balans inanc kimi əhəmiyyətlidir. Xalq yalnız bir tərəfi işıqlandıran jurnalistə etibar etmir. Qərəzsizlik o deməkdir ki, jurnalist hər hansı bir siyasi partiyanın və ya hərəkatın fəal lideri deyildir. Münaqişə zamanı qərəzsiz jurnalistika jurnalisti əhəmiyyətli dərəcədə müdafiə edir. Hər hansı bir tərəfin dəstəkləyiciləri olmayan jurnalistlər hörmətə layiqdirlər.

[3] Jurnalistlər xalq qarşısında, hansını onlar işıqlandırırlar, və cəmiyyət qarşısında, hansı üçün hadisələri işıqlandırırlar, borcludurlar. Jurnalistlər öz mənbəyinin müdafiə edilməsi üçün məsuliyyət daşıyırlar. Bir çox insan, əgər öz kimliyinin açıqlanmasından qoruxursa, jurnalistə əhəmiyyətli məlumatı verməyəcəkdir. Yaxşı jurnalist məlumatı dürüst metodlarla əldə etməyə çalışır, bu da o deməkdir ki, onlar qanunu pozmurlar.

vəziyyəti elə sadələşdirirlər ki, sanki iştirakçı tərəflər idman arenasında qələbə üçün mübarizə aparırdılar.

Müharibənin işıqlandırılmasına hərbi komandir amili təsir göstərir: yeni xəbərlər hansı tərəfin uğura nail olduğu, hansının kapitulyasiyanı bildirdiyi ilə bağlıdır; itkilər barədə insan qurbanı və maddi ziyan terminlərindən istifadə edilir.

Qaltun jurnalistlərə alternativ yolu təklif edir: münaqişənin transformasiya olunmasına fokuslaşdırılmış sülh jurnalistikasının "yüksək yolu". Aşağıda cədvəl verilir:

Jurnalistikanın aşağı yolu/yüksək yolu barədə Qaltunun cədvəli[1]:

| **Müharibə/zorakılıq jurnalistikası** | **Sülh/münaqişə-sensitiv jurnalistika** |
|---|---|
| **I. Müharibəyə/zorakılığa orientasiya olunmuş** | **I. Sülhə/münaqişəyə orientasiya olunmuş** |
| Münaqişə arenasına fokuslaşdırma, 2 tərəf – 1 məqsəd (qələbə), müharibə, "sıfır məbləğə" orientasiya olunmuş | Münaqişənin yaranmasını, x tərəfləri, Y məqsədləri, z məsələləri tədqiq edir, bütün tərəflərin mənfəətinə orientasiya olunmuşdur |
| Qapalı məkan və zaman, səbəblər və arenaya çıxış, "daşı kim birinci atıb?" | Açıq məkan və zaman, səbəblər və nəticələr hər yerdə, eləcə də tarixdə / mədəniyyətdə |
| Müharibə prosesi qeyri-şəffaf və məxfiləşdirilmişdir | Münaqişə prosesi şəffafdır |
| "Mənimdir-sənindir" jurnalistikası: təbliğat, Sizin səsiniz bizimdir | Bütün tərəflərə səs, dəstək, anlayış |

1 Track Two : Constructive Approaches to Community and Political Conflict, Volume 7, Issue 4, Dec 1998.

| | |
|---|---|
| "Onları" görür, çünki problem uğurlu olana fokuslaşdırılmışdır | Münaqişəni/müharibəni problem kimi görür, münaqişəyə qarşı kreativ yanaşmaya fokuslaşdırılmışdır |
| "Onların" dehumanizasiyası, silahdan daha çox gücə malikdir | Bütün tərəflərin humanizasiyası, silahdan daha çox gücə malikdir |
| Reaktiv: gözləyir ki, zorakılıq baş versin, sonra isə işıqlandırır | Proaktiv: prevensiya, zorakıq/müharibə başlayana qədər |
| Yalnız görünən nəticələrə (öldürülənlərin və yaralıların sayı, maddi ziyan) fokuslaşdırılmışdır | Zorakılığın görünməyən nəticələrinə (travma və ad qazanma – strukturlu/mədəni ziyan) fokuslaşdırılmışdır |
| **II. Təbliğata orientasiya olunmuş** | **II. Həqiqətə orientasiya olunmuş** |
| "Onların" yalanını işıqlandırır | Bütün tərəflərin yalanını işıqlandırır |
| "Bizim" yalanlarımızı gizlətməkdə kömək edir | Bütün yalanların üstünü açır |
| **III. Elitaya orientasiya olunmuş** | **III. Xalqa orientasiya olunmuş** |
| "Bizim" dərdimizə fokuslaşdırılmışdır, elitanın seçilən kişiləri onların fikrini ifadə edənlərdirlər | Hər kəsin - qadın, qoca, uşaqların dərdinə fokuslaşdırılmışdır; səsi eşidilməyənlərə ifadə etmək imkanını verirlər |
| "Onları" günahkarlar adlandırır | Bütün günahkarları adlandırır |
| Elitar sülhməramlılara fokuslaşdırılmışdır | Xalq sülhməramlılarına fokuslaşdırılmışdır |

| IV. Qələbəyə orientasiya olunmuş | IV. Qərara orientasiya olunmuş |
|---|---|
| Sülh=qələbə+atəşkəs | Sülh=qeyri-zorakı+kreativ |
| Qələbəyə nail olana qədər sülh təşəbbüslərini gizlədir | Ön plana sülh təşəbbüslərini çəkir ki, müharibənin davam etməsinin qarşısını alsın |
| Müqavilələrə, institusiyalara, nəzarət edilən cəmiyyətə fokuslaşdırılmışdır | Strukturlara, mədəniyyətə - dinc cəmiyyətə fokuslaşdırılmışdır |
| Nəticə: digər müharibəyə doğru gedir, əgər "köhnə müharibə" yenə partlayarsa, qayıdır | Nəticə: rezolusiya, rekonstruksiya, barışıq |

## SÜLH SİYAHISI VƏ MÜNAQİŞƏ-SENSİTİV JURNALİSTİKA

- Münaqişəni iki tərəf arasında bir məqsədi olan və məntiqi olaraq nəticəsi bir tərəfin qələbəsi və digərinin məğlubiyyəti olan toqquşma kimi təqdim etməyin. Bunun əvəzinə, tətil nəticəsində zərərçəkmiş ticarətçiləri, işləmək imkanına malik olmayan fəhlələri, zorakılığı dayandırmaq istəyən kənddə yaşayan qaçqınları və s. sorğulayın. Onların əhvalatını, fikir və məqsədlərini daxil edin. Bu geniş spektrli nəticələr üçün daha çox məkanın yaradılmasına dəstək olacaqdır.
- "Biz" və "onları" bir-birindən kəskin şəkildə ayırmayın.
- Münaqişənin müəyyən edilməsi zamanı liderlərin ifadələrindən istifadə etməkdən çəkinin. Əksəriyyət üçün qəbuledilən fikri səsləndirən adi insanların fikirlərini işıqlandırın.
- Münaqişəni konkret yerdə və konkret vaxt baş verən zorakılıq ilə əlaqələndirməkdən çəkinin. Bunun əvəzinə, indi və ya gələcəkdə hər yerdə baş verə biləcək münasibətlər və nəticələr barədə söhbət edin.

- Zorakılıq və zorakı siyasəti vizual nəticələrinə əsasən qiymətləndirməkdən çəkinin. Məlumatı görünməyən nəticələr ilə əlaqədar olaraq çatdırmaq üçün yolları tapın. Məsələn, istənilən ziyanın və psixoloji travmanın uzun müddət təsir göstərən nəticələri.
- Yalnız münaqişə tərəflərini fərqləndirdən cəhətləri işıqlandırmaqdan çəkinin. Onlara suallar verin və ümumi mülahizələri müəyyən edin. Hər iki tərəfin paylaşa biləcəyi maraq və məqsədləri işıqlandırın.
- Yalnız bir tərəfin dərdi və qorxusunu işıqlandırmaqdan çəkinin. Bütün tərəflərin dərdinə eyni şəkildə yanaşın və bərabər şəkildə işıqlandırın.
- Bir qrupun başına gələnləri işıqlandırdığınız zaman faciə, məhvetmə, terrorizm, gücsüz, çıxılmaz və s. sözlərindən istifadə etməkdən çəkinin. Bu cür sözlərdən istifadə edilməsi reportyoru bir tərəfə qoyur. Xalqdan özlərini necə hiss etdiklərini soruşmayın, vəziyyətin öhdəsindən necə gəldiklərini və nə düşündüklərini soruşun. Bəlkə onlar Sizə problemin həll etmə yollarını təklif edə bilərlər?
- Başqaları onda ittiham etməkdən çəkinin ki, "ilk olaraq onlar başladılar". Bunun əvəzinə, onu müəyyən etməyə çalışın ki, ümumi problemlər bizi heç bir tərəfin gözləmədiyi nəticələrə necə gətirib çıxarır.
- Zorakılığı işıqlandırarkən "dəhşətin" təsvir edilməsindən çəkinin. Zorakılığı daha yaxşı görmək üçün onu işıqlandırın ki, xalq necə məhdudlaşdırılıb, məyus olub və ya təhqir olunubdur. İnsanların alçaldılmış yaşamını təsvir edin.
- Emosional ikimənalı sözlərdən istifadə etməkdən çəkinin. Siyasi qətl *(Assassination)* yalnız dövlət başçısının qətlidir. Kütləvi qırğın (Massacre) günahsız, silahsız vətəndaşların öldürülməsidir. Əsgər və polislərin öldürülməsini "kütləvi qırğın" sözləri ilə izah etmirlər. Soyqırım *(Genocide)* bütün millətin qırılması deməkdir. Ağrını yumşaltmayın, lakin müxtəlif sözlərdən ehtiyatla istifadə edin.
- Demonizasiyadan və terrorçu, ekstremist, fanatik, fundamentalist sözləri ilə yarlıqları yapışdırmaqdan çəkinin. Sözlər tərəflərdən birinin tərəfini tutur və digər tərəf ilə danışıqları qeyri-mümkün edir. Xalqın

adını özü özünü adlandırdığı kimi deyin; onları təsvir edərkən dəqiqlik nümayiş etdirin.

- Bədxah, qəddar, vəhşi, barbar kimi sifətlərdən istifadə etməkdən çəkinin. Bunun əvəzinə, qeyri-müvafiq davranış haqqında bildiklərinizi işıqlandırın; başqa xalq tərəfindən bu davranışın təsvirindən istifadə edin; məlumatın həqiqiliyi haqqında imkan daxilində çox məlumatı çatdırın.
- Fikri fakt kimi təqdim etməkdən çəkinin. Əgər kimsə bəyanat verirsə, onun kimliyini adlandırın ki, bunun Sizin tərəfinizdən təqdim edilən fakt olduğu deyil, bu fikrin ona aid olduğu vurğulansın.
- Yalnız bir tərəfin insan hüquqlarının pozuntularını, toqquşmaları və qeyri-müvafiq davranışını işıqlandırmaqdan çəkinin. Qeyri-müvafiq şəkildə davranan hər kəsi sadalayın; münaqişə iştirakçılarının bütün ittihamlarını eyni ciddiliklə müzakirə edin.
- Bir tərəfin liderlərini gözləməyin ki, Sizə çıxış yolunu təklif edəcəklər. Haradan gəldiyindən asılı olmayaraq, bütün sülh ideyalarını müzakirə edin. Bu ideyaları liderlərə çatdırın və sonra onların cavablarını işıqlandırın.
- İstənilən ideyanı əsaslandırılmış fakt kimi təqdim etməkdən çəkinin. Bütün deyilənləri oxucuya və ya auditoriyaya çatdırın.
- Liderlər tərəfindən hərbi qələbə və ya atəşkəsin sənədlərinin imzalanmasını elə salamlamayın ki, sanki bu addım bizi mütləq sülhə gətirib çıxaracaqdır. Həll olunmamış və yenə də zorakılığa gətirib çıxara bilən məsələləri işıqlandırmağa çalışın.
- Liderlər tərəfindən təqdim edilmiş "bizim tərəfimizin" qərarını işıqlandırmaqdan çəkinin. Haradan olmasından asılı olmayaraq, sülh təşəbbüslərini nəzərə alın və yoxlayın.
- Hər zaman özünüzə sual verin: irqi, dini və kastalar ilə əlaqədar olan məsələlər Sizin reportajınızda əhəmiyyətlidirmi? Əgər deyildirsə, onları çıxarın.

- Bu yeni xəbər mütləqdirmi? O, ictimai marağa səbəb olurmu? Bu məlumat hansı cəhəti ilə maraqlıdır? Yalnız onunlamı ki, o, digər tərəf ilə bağlıdır?
- Həmin faktlar həqiqi olsa belə, o, mənfi əhval-ruhiyyənin yaranmasına dəstək olacaqdırmı? Onları müxtəlif şəkildə təqdim etmək olarmı?
- Sizin reportajınızda fərqli səslər eşidilirmi? Adi xalq və ekspertlərin fərqli fikirləri kifayətdirmi?
- Mənfi əhval-ruhiyyəni yarada bilən təhqiredici sözlərdən və şərhlərdən istifadə etmisinizmi? Həmin şərhlər digər şərhlərlə balanslaşdırılmışdırmı?
- Kriminal xəbərləri işıqlandırarkən, cinayətkar və qurbanın irqi və mədəni mənsubiyyəti barədə söhbət edirikmi? Bu məsələlər ictimai marağın predmetidirmi? Nə səbəbə?

Biz, jurnalistlər, üçün sözlər güclü alətdir. Eləcə də foto və səslər də. Həmin alətlərdən qorxu salmaq və əfsanələri yaratmaq üçün deyil, razılığı əldə etmək üçün istifadə edə bilərik.

## MÜNAQİŞƏ-SENSİTİV JURNALİSTİKANIN MİSALLARI

### Ənənəvi işıqlandırma

Loyo şəhəri – Loyonun baş naziri Buzu terrorçuları tərəfindən Loyoda qumbaranın partladılmasını qınadı, həmin zaman dünən on turist həlak oldu. Baş nazir bildirdi ki, o, xüsusi dəstəni yaratdı və həmin dəstə kütləvi qırğında iştirak edən cinayətkarları tapacaq və həbs edəcəkdir. Polis bildirir ki, partlayış ölüm dəstəsinin üzvləri Buzudan şəhərin meydanına, səyahətlər bürosuna böyük qumbaranı gətirdiyi zaman baş verdi. Polis kapitanı Co Çeterboks dedi ki, qumbara, yəqin ki, çamadanda idi. Səhər Buzunun terrorist-partizan cəbhəsi qumbaranın qoyulmasını inkar

etdi. Lakin hakimiyyət mənbələri deyirlər ki, dünən şəhərin meydanında Buzu cəbhəsinin lideri Tam Qreyi görüblər. Onlar hesab edirlər ki, toqquşmanı o, koordinasiya etmişdir.

**Münaqişə-sensitiv işıqlandırma**

Loyo şəhəri – dünən Loyonun baş naziri bildirdi ki, sirli partlayış, həmin zaman on turist həlak olmuşdu, Buzunun separatçı qrupu tərəfindən təşkil edilmişdir. Polis müstəntiqləri dünən turistlər səyahətlər bürosunun yanında avtobusdan düşərkən partlayışın baş verdiyi dağıdılmış şəhər meydanının təftişini hələ də davam etdirirlər. Baş nazir partlayışda kəndlərdə hökumət qüvvələri ilə mübarizə aparan və respublika idarəetməsini tələb edən yalançı cəbhəni günahlandırdı. Buzu cəbhəsinin lideri telefon söhbəti zamanı partlayış ilə əlaqəsini inkar etdi və onu faciə adlandırdı. Turistik avtobus bir müddət öncə vətəndaş müharibəsi gedən qonşu ölkədən, Babatudan gəlmişdir...

**Fərqi görürsünüzmü?**

**Ənənəvi işıqlandırma**

- Yeni xəbər əsaslandırılmamış ittihamlarla doludur. O, baş naziri dəstəkləyir. Deyir ki, hücumçular Buzudan olan terrorçular idi. Bunu haradan bilir?
- Emosional leksikadan istifadə edilir: qırğın, terrorçular, ölüm dəstəsi.
- Əsaslandırma olmadan polis kapitanının bəyanatını təqdim edir. Adsız hökumət qüvvələri deyirlər ki, adsız insanlar Buzu liderini görüb və onu günahlandırırlar. Sübutedici sənəd mövcud deyildir.

**Münaqişə-sensitiv işıqlandırma**

- Yalnız məlum olanları işıqlandırır. Qumbara sirr pərdəsi ilə örtülüb. Sözlərdən ehtiyatla istifadə edir. Deyir ki, baş nazir bildirdi. O, Buzudan olan separatçıları günahlandırdı.

- O, separatçıları öz-özlərini adlandırdığı kimi adlandırır. O, hər iki tərəfin izahatı və şərhlərini axtarır.
- O, kütləvi qırğın kimi emosional sözlərdən istifadə etmir. O, şahidlərin adlarını adlandırmayan polisin spekulyasiya və bəyanatlarını işıqlandırmır.
- Daha çox izahat imkanlarını nümayiş etdirir. Qumbara münaqişənin baş verdiyi ölkədən daxil olan avtobusda ola bilərdi.

**Ənənəvi işıqlandırma**

Vud şəhəri – məqsədi Uanderlend münaqişəsinin başa çatdırılmasından ibarət olan sülh danışıqları keçən gecə boşa çıxdı, həmin gecə çəhrayı köynəkli üsyançılar tərəfindən polisə qarşı təşkil edilmiş kütləvi qırğın zamanı doqquz polis öldürülmüş və onların cəsədləri eybəcər hala salınmışdır. Dağda yerləşən Uanderlend kəndində amansız cinayət baş verdi, orada patrul polisinə pulemyot və reaktiv qumbaralarla hücum etdilər. Daha bir nəfər yaralanıb, üç vahid nəqliyyat vasitəsi məhv edilib. Cəsədləri bıçaq ilə eybəcər hala salıblar; qurbanlardan birinin başını dağıdıblar. Onlar hesab edirlər ki, hücum Vudlend təpələrinin yaxınlığında bərkidilmiş milli-azadedici ordunun terrorçularının əməlidir. Milli-azadedici ordunun lideri Con Sikspek dedi ki, onun xalqı, ola bilsin ki, "özünü müdafiə etmək məqsədilə" atırdı...

**Münaqişə-sensitiv işıqlandırma**

Vud şəhəri – Uanderlendin bütün siyasi spektri patrul polisin doqquz əməkdaşının həlak olması ilə əlaqədar qəzəbini bildirdi. Ölkənin azlığını "çəhrayı köynəklilər" təşkil edən hər iki əsas partiya qətldən uzaqlaşdı, həmin qətli isə yalançı milli-azadedici ordunun əməli hesab edirlər. Milli-azadedici ordunun lideri patrul polisinə hücumu inkar etdi və qeyd etdi ki, onun xalqı, ola bilsin ki, "özünü müdafiə etmək məqsədilə" atırdı. Lakin Uanderlendin hakimiyyəti bildirdi ki, onlar nəticəsində üç yük maşını məhv olan, pulemyot və reaktiv qumbaralarla hücuma səbəb

olacaq heç bir şey etməyiblər. Spiker əlavə etdi ki, cəsədlər, göründüyü kimi, bıçaq ilə yaralanmış və bir nəfərin başı basdırılmış idi...

## Fərqi görürsünüzmü?

### Ənənəvi işıqlandırma

- Yeni pis xəbərdir, zorakıdır; o, digər tərəflərin fikirlərini əldə etməyə çalışmır; ən pis şeyləri bildirir: "sülh danışıqları boşa çıxdı".
- Emosional və lazım olmayan sözlərdən istifadə edir: kütləvi qırğın, eybəcər hala salma, qəddarlıq. "Eybəcər hala salınmış cəsədlər" sözləri ilə zorakılığı vurğulayırsınız.
- Ənənəvi işıqlandırma tərəf tutur: hadisəni ordu spikerinin nöqteyi-nəzərindən irəli gələrək təsvir edir. O, deyir ki, patrul polisə hücum ediblər.

### Münaqişə-sensitiv işıqlandırma

- Nəinki zorakılıq, daha artıq, zorakılığı qınayan xalq işıqlandırılıb.
- Yeni xəbərlər balanslaşdırılıb: milli-azadedici ordunun lideri inkar edir ki, hücumu onlar həyata keçiriblər, lakin oradaca deyir ki, onun xalqı döyüşürdü.
- Digər tərəfi o, öz-özünü adlandırdığı kimi – milli-azadecici ordu adlandırır.
- Zorakılıq gizlədilmir, gözardı edilmir, lakin o, fakt kimi deyil, bəyanat kimi təqdim edilib.

### Ənənəvi işıqlandırma

Loyo şəhəri – çərşənbə axşamı, şəhərin etnik bandaları arasında aparılmış yeni döyüş yeddi gəncin ölümünə və anbarın dağıdılmasına səbəb oldu. Loyo və Apunun qarşı duran bandaları arasında toqquşma zamanı təxminən 20 dəqiqə ərzində avtomat atışı və Molotov kokteyli bir-birini əvəz edirdi, bunu da bir nəfər polis "etnik atışma" adlandırdı. Sakinlərdən

birinin dediyinə görə, Apu sakini olan, gənc kişi qışqırdı: "hamınızı öldürəcəyəm" və əldə qayırma qumbaranı Loyo tərəfinin gəncləri ilə dolu olan maşına doğru atdı. Maşın anbarın yanında dururdu. Digər sakin dedi ki, onu anbarın pəncərəsindən atan gənc loyolu kişi öldürdü. Onlar gördülər ki, Apu bandasının digər üzvləri anbarın pəncərələrinə atırlar. Binanı od dağıtdı. İki banda bir neçə həftə ərzində etnik müharibəyə qoşulmuşdu. Polisin rəsmi nümayəndələri deyirlər ki...

**Münaqişə-sensitiv işıqlandırma**

Loyo şəhəri - çərşənbə axşamı, gecə, şəhərin mərkəzində qeyri-qanuni narkotik alveri iki qrup narkotik alverçiləri arasında silahlı toqquşmaya səbəb olmuşdur. Nəticəsində yeddi insanın həlak olduğu atışmada qarşı duran narkodillerlər tərəfindən toplanılmış gənclər iştirak edirdilər, onlar isə, əhalinin fikrincə, əraziyə nəzarət etməyə çalışırdılar. Həlak olmuş dörd gənc Loyo sakinləri idi. Onlar anbarı müdafiə etmək üçün kirayələnmişdilər. Qərbi Vətəndaşlar Assosiasiyasının sədri Ceyn Qrin bildirdi ki, yerli sakinlərin fikrincə, anbar narkotiklərin distribusiya mərkəzinə çevrilmişdir. Xanım Braun bildirdi ki, şərq tərəfinə nəzarət etməyə çalışan digər narkodillerlər Apunun sakinləri olan işsiz gəncləri kirayələyərək tüfənglərlə silahlandırmışlar. "Polis narkotik alverçiləri ilə döyüşməkdən imtina etdi və bizim küçəmiz döyüş meydanına çevrildi. Bizim polis şöbəsinə, müalicə mərkəzləri üçün maliyyə vəsaitlərinə ehtiyacımız vardır"...

## Fərqi görürsünüzmü?

**Ənənəvi işıqlandırma**

- Zorakılıq detalları ilə başlayır və etnik qrupları günahlandırır. Xalqın etnik mənsubiyyəti tez-tez vurğulanır.
- Adsız polis əməkdaşının fikri fakt kimi verilir.

- Bizə zorakılıq detallarını təqdim edir, lakin zorakılığı izah etmir.
- Digərlərin maraq və mülahizələrini işıqlandırmağa çalışmır.

**Münaqişə-sensitiv işıqlandırma**

- Etnik eyniliyə toxunmur, çünki bu mövzu ən əhəmiyyətli deyildir.
- Bizə zorakılığı göstərir, lakin izah edir ki, zorakılığın səbəbi narkodillerlərdir.
- Bizə etnik mənsubiyyət barədə məlumat verir, lakin göstərir ki, onlar qurbanlardır.
- Qərarlarla birlikdə digər mənbələri və məlumatı axtarır.
- Bizə göstərir ki, polis qərar qəbul edə bilmir.

## TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ

Münaqişənin reportyoru təhlükəsizlik məsələlərini bilməli və onu qorumaq üçün ölçü götürməlidir. Təhlükəsizliyin qorunması üzrə əsas tövsiyələr:

- Heç bir hadisə o dərəcədə yaxşı deyildir ki, onun üçün ölümə getməyə və ya travma almağa dəysin.
- Əgər məqsədiniz zorakılığı göstərməkdirsə, qaçış marşrutlarınızı əvvəlcədən planlaşdırın.
- Riski müəyyən edin və qərar verin, bu hadisə risk ilə eyni çəkiyə malikdirmi?
- İlkin yardım qaydaları, xüsusilə, qanaxmanı dayandırma qaydası ilə tanış olun.
- Üstünüzdə silah gəzdirməyin, silahlanmış jurnalist ilə birlikdə səyahət etməyin.
- Harada imkanınız olsa, hər yerdə kimliyinizi deyin. Özünüzü təqdim edərkən vurğulayın ki, Siz reportyorsunuz, özünüzü başqa şəkildə xarakterizə etməyin.

- Əgər Siz müharibə müxbiri kimi akkreditə olunmamısınızsa və əgər Sizdən xüsusi geyimin geyinilməsi tələb edilərsə, heç vaxt hərbi və ya yarım-hərbi geyimi geyinməyin.
- Sizin dəyişkən vəziyyətə, ola bilsin ki, digər fraksiyanın təsiri sahəsinə keçdiyinizə işarə edən nişanları yaxşı dərk edin.
- Əgər Siz cəbhənin hər iki tərəfində işləyirsinizsə, heç vaxt bir tərəfə digər tərəfin hərbi əməliyyatları barədə məlumat verməyin.
- Üzərində yerlərin qeyd edildiyi xəritələri özünüzlə götürməyin. Bu cür halda Siz casus təəssüratını yarada bilərsiniz.
- Əgər Siz elə bir yerə düşsəniz ki, oradakı xalq Sizi hədələyir, sakitləşin və mehriban davranın. Özünüzlə siqaret və ya kiçik komfort yaradan digər əşyaları götürün və xalqa təklif edin.
- Üzərində qan qrupunuz yazıldığı bilərzik geyinin və ya nişan bərkidin.
- Potensial olaraq təhlükəli yerlərdə işlədiyiniz zaman elə ayaqqabı geyinin ki, qaçmaq asan olsun.
- Nədən yerli əhalinin olduğu yerdə rahatlıqdır?
- Qorxun, bu normaldır, lakin panikaya düşməyin.
- Sığorta - təhlükəli yerlərdə işlədiyiniz zaman işəgötürənin Sizi adekvat şəkildə sığorta edib-etmədiyini yoxlayın.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR


A Guide for Professional Journalism in Conflict Zones, by Search for Common Ground, Jerusalem, 2014.

Bjorkdahl, A., Developing a Tool Box for Conflict Prevention, Report on the Krusenberg Seminar, SIDA, September, 2000.

Bush, K., A Measure of Peace: Peace and Conflict Impact Assessment of Development Projects in Conflict Zones, IDRC Working Paper No. 1, 1998.

Du Toit, Peter, Conflict Sensitive Reporting: A toolbox for journalists; Sol Plaatje Institute for Media Leadership, School of Journalism & Media Studies, Rhodes University, Grahamstown, 2012.

Gaigals, Cynthia: Conflict sensitive approaches to development practice, IDRC Report, 2000.

Galtung, Johann, Constructive Approaches to Community and Political Conflict _ High road, low road : charting the course for peace journalism, Track Two, Volume 7, Issue 4, Dec 1998.

Glasl, Friedrich, Konfliktmanagement, Vol. 2, Bern/Stuttgart, 2002.

Howard, Ross, Conflict sensitive journalism, International Media Support, Copenhagen, 2012.

Keeble, R. L., Tulloch, J. Zollmann, F., Peace Journalism War and Conflict Resolution, Peter Lang Publishing, 2010.

McGoldrick, A., Lynch, J., "Peace Journalism, What is it? How to do it?", Retrieved 10 Sept, 2017. https://www.transcend.org/tri/downloads/McGoldrick_Lynch_Peace-Journalism.pdf

Roth, C.; Barbero, Ch et. al., "Conflict sensitive approaches to development, humanitarian assistance and peace-building" by Africa Peace Forum, Center for Conflict Resolution, Consortium of Humanitarian Agencies, Forum on Early Warning and Early Response International Alert.

Tragedies & Journalists _ A guide for more effective coverage by Dart Center for Journalism & Trauma; Dart Center for Journalism & Trauma. Retrieved 21 Sept, 2017. https://dartcenter.org/sites/default/files/en_tnj_0.pdf

Youngblood, Steven, Peace Journalism Principles and Practice, Taylor & Frances, 2016.

სტამბა დამანი
Print House Damani

Tbilisi, P. Çançibadze k. 6
☎ 214 34 01, 577 33 38 57
stamba.damani@gmail.com
Damani mətbəəsi/Print House Damani

ISBN 978-9941-27-682-8

Friedrich Naumann STIFTUNG FÜR DIE FREIHEIT

IDEM
THE INSTITUTE FOR DEMOCRACY, MEDIA AND CULTURAL EXCHANGE E.V.

Auswärtiges Amt

Freiheit.org
fnfsc.fnst.org